**Elan**

**Diqqət!**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti 6219.01 “Kulturologiya və onun ümumi məsələləri” ixtisası üzrə doktorantura pilləsi üçün imtahan proqramını təqdim edir. Müəlliflər Tarix üzrə elmlər doktoru, Azərbaycan Turizm və Menecment Universitetinin professoru Minaxanım Rafiq qızı Əsədova, AMEA Memarlıq və İncəsənət İnstitutunun ümumi işlər üzə direktor müavini, kulturologiya üzrə fəlsəfə doktoru, dosent Namiq Abbasov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin prorektoru, kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyevadır:

ÖN SÖZ

Proqram 6219.01 – “Kulturologiya və onun ümumi məsələləri” ixtisasına əsasən fəlsəfə doktoru minimumlarının verilməsi məqsədilə müvafiq məşğələlərin aparılması üçün nəzərdə tutulmuşdur. Doktorant hazırlığı prosesində istifadə olunan bu proqram elmi dərəcə almağa hazırlaşan mütəxəssislərin ixtisas üzrə ümumi nəzəri hazırlığında və peşə yönümlü biliklərinin genişlənməsində mühüm rol oynayır.

Kulturologiya fənni üzrə hazırlanmış yeni proqramda fənnin predmeti, obyekti və subyektinin tədqiqi öz əksini tapmış, məqsəd və vəzifələri göstərilmişdir. Proqramda kulturologiyanı əhatə edən mədəniyyətşünaslığın müxtəlif aspektlərinə dair təhlillər yer almışdır.

Bu gün mədəniyyətin və beynəlxalq mədəni əlaqələrin inkişaf konsepsiyası xalqımızın əsrlər boyu çətin, həm də təmkin və səbrlə əldə etdiyi mədəni-mənəvi sərvətlərin, milli dəyərlərin varisliyinin təsdiq və təmin edilməsini, habelə folklor inciləri, milli ənənələrin və mərasimlərin qorunması və təbliğini millətlərarası mədəni əməkdaşlığın və xarici ölkələrlə qarşılıqlı yaradıcılıq ənənələrini nəzərdə tutur.

Mədəniyyətin başlıca vəzifəsi cəmiyyətin, dövlətin və ümumilikdə bəşəriyyətin ilkin əsası olan insanın kamilləşməsinə yardım etməkdir. Kamil insan dünya mədəniyyət siyasətində başlıca idrak obyekti olmaqla bərabər bütövlükdə mədəniyyətin aparıcı qüvvəsinə çevrilir və bəşər mədəniyyətində aparıcı funksiyaları yerinə yetirir. Struktur etibarilə proqram beş hissədən ibarətdir. Proqramda bütövlükdə kulturologiyanı əhatə edən mədəniyyətin nəzəriyyəsi, kulturologiya tarixi, sosial və tətbiqi kulturologiya kimi əsas sahələr qruplaşdırılmış formada və ardıcıllıq gözlənilməklə öz əksini tapır. Mövzuların sistemli və əlaqəli formada qurulması tədris prosesinin rahatlığını təmin etməklə bərabər həm də mənimsəmə faizinin yüksək olmasına, elmi problemin asan qavranılmasına yardım göstərir.

Proqramın sonunda Azərbaycan, rus və xarici dillərdə ədəbiyyat siyahısı verilmişdir. Burada ixtisas üzrə elmi biliklərin genişləndirilməsi və səmərəliliyinin artması üçün faydalı ola biləcək bir çox ixtisas, metodoloji və ümumi ədəbiyyat siyahısı yer almışdır.

Proqramdan həmçinin multidistiplinar fənlərin tədrisində, ali məktəblərdə, əyani və qiyabi mütəxəssis hazırlığında və digər sahələrdə istifadə etmək olar.

Minimum proqramının məqsəd və vəzifələri

Doktoranturaya qəbul olunanlar ixtisas (Sənətşünas- kulturoloq) sahəsində müstəqil tədqiqat işlər aparmaq, tədqiq olunan problemin aktuallığını əsaslandırmaq, tədqiqatin məqsəd və vəzifələrini müəyyən etmək bacarığına və tədqiqatın metodologiyası barədə biliklərə malik olmalıdırlar.

İxtisas üzrə minimum proqram- sənətşünas-kulturoloq ixtisas istiqaməti üzrə dissertrant və doktorantın bilik səviyyəsini müəyyən edəcəkdir; ixtisas sahəsində elmi-tədqiqat işinin məqsədləri, elmi-tədqiqat mətninin yazılması və tədqiqat nətıcələrinin təcrübədə həyata keçirilməsi bacarıqlarını müəyyən edəcəkdir.

Dissertrant və doktorant bilməlidir:

- Ali təhsil müəssəsi proqramları həcmində İxtisasa aid olan fənlərin tarixini bilmək;
- İxtisasa aid ədəbi mənbələr barədə böyük informasiyaya sahib olmaq;
- Dünya mədəniyyətinin inkişaf kontekstində kulturologiyanın nəzəri əsaslarını və tarixini bilmək;
- Müasir kulturologiyanın vəziyyəti, tendensiyaları və problemləri haqqında biliklərə sahib olmaq. Bədii prosesləri xarakterizə edən əsərləri bilmək.

Doktorant və dissertant:

- Mədəniyyətin nəzəriyyəsinin tarixi ilə bağlı ədəbi mənbələrlə işləməyi bacarmalıdır;
- Tarixi konteksti nəzərə alaraq kulturologiyanın konsepsiyalarını təhlil etməyi bacarmalıdır (üslubi və formal təhlil);
- Tədqiqatın elmi nəticələrini müstəqil və faktlarla əsaslandırmağı bacarmalıdır.

Məşğələlərin bölgüsü

| Sıra №-si | Bölmə və mövzular | Mühazirə | Məsləhət |
|---|---|---|---|
| | Birinci bölmə. Kulturologiyanın nəzəriyyəsi | | |
| 1 | Kulturologiya anlayışı, strukturu və funksiyaları | 2 s. | |

| | | | |
|---|---|---|---|
| 2 | Kulturologiyanın metodologiyası | 2 s. | |
| 3 | Mədəniyyət haqqında nəzəri konsepsiyalar | 2 s. | |
| 4 | Maddi və mənəvi mədəniyyət | 2 s. | |
| 5 | Mədəniyyət və sivilizasiya | 2 s. | |
| 6 | Mədəniyyətlə təbiətin harmoniyası və simvollar | 2 s. | |
| 7 | Elitar və kütləvi mədəniyyət | 2 s. | |
| 8 | Mədəniyyət və dil | 2 s | |
| 9 | Mədəniyyətin maarifçilik konsepsiyası və bədii mədəniyyət | 2 s | |
| | İkinci bölmə. Kulturologiyanın tarixi və istiqamət sahələri | | |
| 10 | Mədəniyyətin erkən dövrü | 2 s. | |
| 11 | Mədəniyyətə baxışlar: (qədim dövr, antik dövr, orta əsrlər) | 2 s. | |
| 12 | Qərb və Şərq mədəniyyəti. | 2s | |
| 13 | Mədəniyyətin intibah dövrü, Barokko və Klassisizm | 2 s. | |
| 14 | Azərbaycan mədəniyyətinin dövrləşməsi | 4 s. | |
| 15 | Azərbaycan Demokratik Respublikası dövründə sosial-mədəni vəziyyət | 4 s. | |
| 16 | Mədəni tərəqqi və mədəni tənəzzül | 2 s. | |
| 17 | Mədəniyyətin əsas sahəsi olan turizmin yaranması | 2 s | |
| | Üçüncü bölmə. Mədəniyyətin fəlsəfəsi (kulturfilosofiya – mədəniyyət haqqında fəlsəfi biliklər) | | |
| 18 | Klassik alman kulturfəlsəfəsi: İ.Kant, F.Hegel | 2 s. | |
| 19 | Aksioloji fəlsəfə (V.Vindelband, Q.Rikkert) Simvolik fəlsəfə ( E.Kassirer) | 2 s. | |
| 20 | Mədəniyyətin qneseologiyası: Özünüdərk mədəniyyəti | 2 s. | |
| 21 | Mədəniyyətdə ekzistensialist fəlsəfə | 2 s. | |
| 22 | Özünüdərk mədəniyyəti | 2 s. | |
| 23 | Mədəniyyətdə strukturalist və poststrukturalist fəlsəfə | 2 s. | |
| 24 | İndustrial və postindustrial cəmiyyətin sosial-mədəni konsepsiyaları | 2 s. | |
| 25 | Mədəniyyətdə böhran və onun Azərbaycanda təzahür elementləri. Submədəniyyət anlayışı | 4 s. | |
| | Dördüncü bölmə. Sosial kulturologiyanın əsas istiqamətləri | | |
| 26 | Yeni dövrün mədəniyyətində gender münasibətləri | 2s | |

| | | | |
|---|---|---|---|
| 27 | Müasir dövrdə dövlət və qeyri-dövlət təşkilatlarının mədəniyyətin inkişafında rolu və təsnifatı. | 2s | |
| 28 | Cəmiyyətin inkişafında mədəniyyət və iqtisadi şəraitin qarşılıqlı əlaqəsi. | 2s | |
| 29 | Cəmiyyətdə texniki tərəqqi ilə mədəniyyətin qarşılıqlı əlaqəsi. | 2s | |
| 30 | Cəmiyyətdə mədəni proseslərin sosial cəhətdən nizamlanması. | 2s | |
| 31 | Müasir şəhər və kənd mədəniyyətləri və insan. | 2s | |
| 32 | Müasir gəncliyin mədəniyyətinin əsas xüsusiyyətləri və elementləri. | 2s | |
| 33 | İşgüzarlıq mədəniyyəti anlayışı və onun əsas xüsusiyyətləri. | 2s | |
| 34 | Mədəniyyət və şəxsiyyətin sosiallaşması. | 2s | |
| | Beşinci bölmə. Kulturologiyanın müasir problemləri | | |
| 35 | Müasir Azərbaycan mədəniyyəti | 2s | |
| 36 | YUNESKO – nun məqsəd və vəzifələri | 2s | |
| 37 | Multikulturalizm:tarixi, mahiyyəti və əsas xüsusiyyətləri | 2s | |
| 38 | Mədəniyyət siyasətinin milli və dini aspektləri | 2 s. | |
| 39 | Tarixi-mədəni turizmin kulturoloji aspektləri. | 2s | |
| 40 | Etik, hüquqi və siyasi mədəniyyət | 2 s. | |
| 41 | Demokratiya və vətəndaş cəmiyyəti mədəniyyəti | 2s | |
| 42 | Mədəni insan düsturu | 2 s. | |
| 43 | Liderlik mədəniyyəti | 2 s. | |
| 44 | Müstəqillik illərində Azərbaycanın mədəniyyət siyasətinin prioritetləri | 2s. | |
| 45 | Azərbaycanla inkişaf etmiş dünya dövlətlərinin mədəniyyət siyasətinin müqayisəli təhlili | 2 s. | |
| 46 | Azərbaycan muzeylərinin yaradılması və kulturoloji istiqamətdə öyrənilməsi | 2s | |
| 47 | Heydər Əliyev tərəfindən müəyyənləşdirilən mədəniyyət konsepsiyasında varislik faktoru | 4s. | |
| 48 | İşğaldan azad olunmuş ərazilərdə mədəni quruculuq | 2s | |
| 49 | Milli mədəniyyətimizin dünyaya inteqrasiyasında Azərbaycan diasporunun rolu. | 2s. | |

| | | | |
|---|---|---|---|
| | | | |
| 50 | Azərbaycanın tarixi və mədəni irsinə qarşı Ermənistanın törətdiyi cinayətlərə beynəlxalq təşkilatların ikili standart mövqeyi. | 2s. | |

Mövzuların izahı

Birinci bölmə. Kulturologiyanın nəzəriyyəsi

1. Kulturologiya anlayışı, strukturu və funksiyaları

Kulturologiya insan və cəmiyyətin, şəxsiyyətin formalaşması haqqında elm kimi. Kulturologiyanın mədəniyyəti, sivilizasiyanı, onun tarixini, insanla mədəniyyətin qarşılıqlı əlaqəsini və qarşılıqlı təsirini öyrənən bir elm olması. "Mədəniyyət" sözünün etimologiyası. "Mədəniyyət" sözünün şərq analoqları: Çində-jen, Hindistanda-dharma kimi səslənməsi. Anadolu türklərinin bu sözü "kültür" kimi işlətmələri. Roma natiqi, yazıçı və filosof MarkTulli Siseronun "Tuskulan söhbətləri" əsəri. Mədəniyyətə aid olan ilk əsər ingilis tarixçisi E.Teylorun "İbtidai mədəniyyət" (1871) adlı kitabı. Amerikalı alim L. Uaytın "Mədəniyyət haqqında elm"(1949) kitabı.

Ruhi istehsal sistemi: konseptual-nəzəri ifadə, etik ifadə, bədii-estetik ifadə, praktik ifadə. Ruhi (mənəvi) dəyərlərin mühafizə sistemi: Bioloji mühafizə. Süni mühafizə. Mənəvi sərvətlərin yayılması prosesi: Təhsil sistemi, Kütləvi informasiya vasitələri. Mədəniyyət müəssisələri. Mənəvi mədəniyyətin tərkib hissələri. Mədəniyyətin strukturu. Struktur elementləri. Submədəniyyət, əksmədəniyyət. Mənəvi mədəniyyətin funksiyalarının sayının müxtəlif cür verilməsi. Prof. V.Q.Draçın mədəniyyət konsepsiyası. prof. A.A.Raduqinin mədəniyyət konsepsiyası. Mədəniyyətin əsas funksiyaları.Mədəniyyətin inkişaf qanunları

2. Kulturologiyanın metodologiyası

Kulturologiyanın ümumi metodoloji əsasları: tarix, məntiq, dialektika, antropologiya, qneseologiya. Tarixilik prinspinin üç əsas funksiyası: idraki, metodoloji və dünyagörüşü. Məntiq – təfəkkürün forma və qanunları haqqında elmdir. Məntiqi metod mədəniyyətin obyektiv inkişaf proseslərini bəşəriyyətin inkişafı naminə düzgün anlamağa imkan verir. Aristotelin deduktiv məntiqi. Frensis Bekonun induiktiv metodu, İmmanuel Kantın formal, metafizik məntiqi, Hegelin dialektik məntiq. Lütvizadənin qeyri-səlis məntiqi. "Çoxluqlar nəzəriyyəsi". Sistemli yanaşmaya əsaslanan kulturoloji metodologiya: dialektika; tarixilik prinspi; məntiq (LütviZadənin qeyri-səlis məntiqi daxil olmaqla)

3. Mədəniyyət haqqında nəzəri konsepsiyalar

Mədəniyyət haqqında nəzəri konsepsiyalar. L.A. Uaytın mədəniyyət müddəası. Energetik konsepsiyası. Üç altsistem: texnoloji, ideoloji, sosial. A. Maslounun mədəniyyət və insan müddəası. Təlabatın beş səviyyəsi: fizoloji tələblər; sülh, təhlükəsizlik və özünümühafizəyə olan tələbat; məhəbbət və birliyə olan tələbat; özünütəsdiq və etirafa olan tələbat; özünüaktuallaşdırmaq və yaradıcılıq vasitəsi ilə təkmilləşdirmə tələbatı, L.E. Gertmanın elmi yanaşmaları – antropoloji yanaşma, sosioloji yanaşma, fəlsəfi yanaşma. V.S. Polikarpovun elmi yanaşmaları – sistemli yanaşma, fəaliyyətyönümlü yanaşma, dəyərləndirici (aksioloji) yanaşma. Ziya Gögalp. Kültür və mədəniyyət konsepsiyası. "Türkçülüyün əsasları" əsəri. Kültürmahiyyətcə milli, mədəniyyət isə beynəlmiləldir. Kültür milli olduğu halda, mədəniyyət uluslararasıdır, beynəlmiləldir. Kültür və mədəniyyətin birləşmə və ayrılma vəziyyəti. P.A. Sorokin "Sosial və mədəni dinamika" əsəri. Əşyalar aləmi (konkret əşyalar); subyektiv aləm (insan); transsubyektiv aləm (ruhi mahiyyət, ideyalar, düşüncələr);

4. Maddi və mənəvi mədəniyyət

Mədəniyyətin tam sisteminin iki böyük sahəsi: maddi və mənəvi mədəniyyət. Mədəniyyətə kulturoloji yanaşmanın mənası: bu fenomenin özündə maddi və mənəvi istehsalın nəticələrini əks etdirməsi. Maddi mədəniyyət insanın maddi istehsal fəaliyyətinin bütün sahələrini əhatə etməsi. (Əmək vəsaitləri, yaşayış və gündəlik məişət əşyaları, geyim, nəqliyyat vasitələri və s.). Mənəvi mədəniyyətə isə mənəvi istehsal sahəsi və onun nəticələri, məhsulları aid edilir. Buraya şüurun bütün sahələri – elm, mənəviyyat, tərbiyə və maarif, hüquq, fəlsəfə, incəsənət. ədəbiyyat, folklor, din və s. aiddir. Mədəni fəaliyyətin iki növü: yaradıcı və reproduktiv.

5. Mədəniyyət və sivilizasiya

Mədəniyyət və sivilizasiyanın tarixi kökləri. Mədəniyyət sosial hadisə kimi. Sivilizasiya mədəniyyətin ali səviyyəsi kimi. Mədəniyyət və sivilizasiyanın oxşar və fərqli cəhətləri. İlk dəfə XVII əsrin 60-cı illərində fransız dilində yaranan "sivilizasiya" anlayışının Holbax tərəfindən formalaşdırılması. Sivilizasiyanın təkamül mərhələləri. Sivilizasiya və onun nəzəriyyəsi. XX əsrdə alimlər tərəfindən mədəniyyət və sivilizasiyanın fərqli cəhətlərinin müəyyən edilməsi. Nəzəriyyənin Almaniyada O.Şpenqler, İngiltərədə A.Toynbi və Rusiyada N.Berdyayev tərəfindən araşdırılması. Sivilizasiyanın əsas əlamətləri. Qərb və Şərq sivilizasiya

tipləri. Azərbaycan sivilizasiyanın ən qədim mərkəzlərindən biri kimi. Əhməd Ağaoğlunun "Üç mədəniyyət" əsəri.

6. Mədəniyyətlə təbiətin harmoniyası və simvollar.

İnsandan asılı olmayaraq mövcud olanlar (dünya, təbiət, natura), insan tərəfindən yaradılan (həm ictimai, həm də şəxsi olan fiziki və mənəvi varlıqlar) arasındakı fundomental fərq - fəlsəfi fikrin tarix boyu diqqəti cəlb edən problem kimi. Təbii yarananla süni surətdə formalaşan, torpaqda yetişənlə insan fəaliyyətinin nəticələri arasındakı fərq - təbiətlə mədəniyyət arasındakı əsas fərq kimi. İnsanın təbiətlə münasibətində təbiətin mənəvi, xüsusən estetik cəhətdən dərk edilməsi. İncəsənət - təbiətə estetik münasibətin ən yüksək forması kimi. Ekoloji mədəniyyət. Simvol – varlığı anlamağın daxili müşahidəyə əsaslanan arxaik forması kimi. Simvolların insanların davranış normaları və təfəkkür obrazlarını özündə təsbit etməsi. Mifaloji rəmz. Qədim "müdrikliyin açarı" hesab edilən Taro insanın həyat təcrübəsinin 21 mərhələsi. Kulturoloq Yunqtaroda görə insanın özünütəsdiqi üçün bir birini tamamlayan iki yanaşma: intravert və ekstravert.

7. Elitar və kütləvi mədəniyyət.

Kulturoloji nəzəriyyədə "elitar mədəniyyətin yeri. "Elita" mənşəcə fransız sözü olub, mənası "ən yaxşı, seçilmiş" deməkdir. Elitar mədəniyyətin mədəniyyət sistemində yeri və mövqeyi. Mədəni elita. Elitar mədəniyyət mərkəzləri və institutları. (Elmi müəs., ali təhsil müəs., elmi məktəblər, parlament yığıncaqları və . s) Azərbaycanda elitar mədəniyyət.
"Kütləvi mədəniyyət" sosial mədəni fenomen kimi. Kütləvi mədəniyyətin fəaliyyət sahələri və əsas institutları. (Kütləvi ümumtəhsil məktəbi, kütləvi siyasi hərəkat, küt. bədii mədəniyyəti əks etdirən asudə vaxt sənayesi və s.)

8. Mədəniyyət və dil.

Mənəvi sərvətlərin yalnız yaradılması deyil, onların yayılmasının mədəniyyətin inkişafındakı rolu. Mənəvi sərvətlərin həm şaquli(digər nəsillərə), həm də üfiqi surətdə (digər xalqlara) 3 müstəqil qrupa bölünməsi. 1. Təhsil sistemi; 2. Kütləvi informasiya vasitələri; 3. Mədəniyyət müəssisələri.
Kommunikativ mədəniyyət, ünsiyyət mədəniyyəti. Mövcud olan işarət üsullu kommunikasiyalar və onların vasitəsi ilə ötürülən mədəniyyət dili. 1. Təbii dillər; 2. Süni dillər; 3. İkinci dərəcəli dillər. Semiotika (sema-işarə yunan). Qermanevtika-(hermenia- izah etmə) qədim elm.

Dil fəal ünsiyyət vasitəsi, ictimai hadisə kimi. Ana dilimiz Azərdaycan dilinin özünəməxsusluğu.

9. Mədəniyyətin maarifçilik konsepsiyası və bədii mədəniyyət.

Azərbaycan marifçiləri: A.A. Bakıxanov. Əsərləri: Tərəqqinin yeganə yolu elm və maarifçilikdir. Maarifçilik islam ənənələri ilə müasir tərəqqinin birləşməsi və əxlaqi kamilliyi təmin edir. M.F. Axundov. Əsərləri: Maarifçilik cəmiyyətin qüsurlarının aradan qaldırılmasının, əxlaqın dəyişdirilməsinin, idrakın kamilləşməsinin əsasıdır. Həsən bəy Zərdabi. "Əkinçi". Üç tribuna: maarif, mətbuat, teatr.

Bədii yaradıcılıq fəaliyyətinin nəticəsi olan, ədəbiyyat və incəsənət əsərlərinin, folklor, bədii sənət növlərin və peşələrin estetik əhəmiyyətini formalaşdıran xüsusiyyətlərdir. Mədəniyyətin inkişafında incəsənətin rolu zəruridir.

İncəsənəti insan fəaliyyətinin digər formalarından fərqləndirməyə imkan verən xüsusiyyətləri Incəsənət bədii yaradıcı fəaliyyətin nəticəsidir və eyni zamanda bəşəriyyətin mədəni tarixi təcrübəsinin reallaşmasıdır. Bədii obraz təkcə gerçəkliyin zahiri uyğunluğu kimi deyil, həm də həmin gerçəkliyə yaradıcı münasibət formasında, düşüncə üsulu, real həyatın tamamlayıcısı kimi təzahür edir.

## İkinci bölmə. Kulturologiyanın tarixi və istiqamət sahələri

10.Mədəniyyətin erkən dövrü.

İbtidai mədəniyyətin bəşər tarixinin ilk mərhələlərindən meydana gəlməsi. Poleolit dövründə odun əldə edilməsi. Yığıcılıq və ovçuluq mədəniyyəti. Arxaik mədəniyyətin 30 min illik tarixə malik olması. İbtidai insanların dünya haqqında təsəvvürlərinin dini formaları. Totemizm. Animizm. Magiya. Fetişizm. Mifologiya. Mif kollektiv şüurun inikası kimi. Miflər qədim mədəniyyətlərin irsi kimi.

Əmək alətlərinin düzəldilməsi - ibtidai incəsənətin ilk nümunəsi kimi. Daş, tunc və dəmir dövrü. Daş dövr, paleolit (e.ə. 2.5-3milyon ildən-e. ə 12minilliyə qədər), mezolit dövrü (e.ə. 12 minillikdən-e. ə 8minilliyə qədər) neolit dövrü (e.ə. 7 minillikdən-e.ə. 6 minilliyə qədər)

İlk ibtidai təsviri sənət əsərləri: Heykəlciklər, rəsmlər, təsvirlər və s. Dekorativ sənət növləri: daş və sümük üzərində işləmələr, relyeflər və s. İbtidai icma dövrünün sonunda bədii sənətlər: bürünc, qızıl, gümüş əşyaların hazırlanması, memarlıq tikililəri-qalalar, yaşayış məskənləri, dəfn üçün məqbərələr.

11.Mədəniyyətə baxışlar: (qədim dövr, antik dövr, orta əsrlər).

Qədim Misir yazısının meydana gəlməsi (IVmin. sonu). Əlifba işarələri. Qədim Misir piramidalarının "dünyanın 7 möcüzəsindən" biri olması. Misir mədəniyyətinin dünya mədəniyyətinə təsiri.

Mesopotamiya mədəniyyətinin b.e.ə. IV-III minilliklərdə yaranması. Piktoqrafiya (şəkli yazı). III minillikdə şumer yazı sisteminin mixi yazı sisteminə çevrilməsi. E.ə. III min. əv. Şumer ədəbiyyatının çiçəklənməsi, (əfsanələr, himnlər, mərsiyələr, dastanlar və s.)

Çin mədəniyyəti tarixinin e.ə. III-II minillikdən başlaması. E.ə. II minillikdə yazının meydana gəlməsi.

Qədim İran mədəniyyətinin yaradılmasında İranın tayfa və xalqlarının, Orta Asiya və Azərbaycan xalqının rolu. Zərdüştliyin qəbul edilməsi (e.ə. VII əsr)və farslar arasında yayılması. "Avestada"da İran mədəniyyəti hıaqqmda məlumatlar.
Qədim Türklərin ilk mədəniyyəti (bozqır mədəniyyəti). Saray memarlıq ansamblları. Saray tikililəri. İstanbulda Topqapı sarayı. Memar Sinan (XVI əsr);
"Antik" sözünün mənası. Antik mədəniyyət və varisləri. Yunanıstanın ən qədim sivilizasiyalarının tarixinin e.ə. III-II minillikdən başlaması.

Klassik dövr (e.ə. Vl-IVəsrinlyar.) Afinanın yunan mədəniyyət mərkəzinə çevrilməsi.

Son klassika(e.ə. IVəsrin I yar.) Ellinizm dövrünün mədəniyyəti (e.ə. IVəsrin II yarısından e.ə. I əsrədək).
Roma mədəniyyətinin XII əsrdən çox yaşaması. Respublika dövrü (e.ə. VI-I əsrlər). Portret sənəti. Teatr. Bədii ədəbiyyat.

Orta əsrlərdə Avropa mədəniyyəti. Karolinqlər sülaləsi dövründə mədəniyyət. Böyük Karlın mədəniyyətə münasibəti. Almaniya, Fransa və İtaliya dövlətlərinin yaranması. Mədəniyyətin dirçəlməsi. Roma ənənələrinin məhz Bizans tərəfindən mənimsənilməsi. Xristianlığın yayılması və təqib edilməsi.
VII əsrin I yarısında Məkkə şəhərində yeni dinin-islamın yayılması. Ərəb dili-dövlət dili və millətlərarası ünsiyyət vasitəsi kimi. VIII-XIII əsrlərdə bir çox yunan, Roma və Bizans müəlliflərinin əsərlərinin ərəb dilinə tərcüməsi.
Quran-müsəlmanların universal ensiklopediyası kimi. Surə və ayələr. Hədislər.
Müsəlman ölkələrinin tarix və mədəniyyətinin Qafqaz və Orta Asiya bədii ənənələrinə təsir göstərmiş İran və Türkiyə ilə sıx bağlılığı.

12. Qərb və Şərq mədəniyyəti.

Mədəniyyətlərin Qərb və Şərq tiplərinə bölünərək təkcə ərazi faktoru ilə bağlı deyil, bir sıra müxtəlif xüsusiyyətlərinə görə fərqlənməsi:dünyanı öyrənməyin və tanımağın metod və üsulları; dəyərləndirmə kodeksi; dünyagörüşünün istiqamətlənməsi; ictimai-siyasi və iqtisadi sistemləri. Qərb mədəniyyətinin daha çox individuallığa, yeniliyə, dinamik həyat tərzinə yaxınlığı. Qərb mədəniyyətinin əsas mərhələləri: klassik antik mədəniyyət, ellinistik-roma mədəniyyəti, orta əsr xristian mədəniyyəti, yeni avropa mədəniyyəti. Qərb

mədəniyyətinin əsas xüsusiyyətləri. (Şəxsiyyətə hörmət, məsuliyyət, dinamizm, rasional yanaşma)

Şərq mədəniyyətinin dünya sivilizasiyalarındakı əzəmətli rolu. Şərqdə yenilik qədimliyi, ənənəliyi dağıtmır, onunla orqanik vahidlik yaratmağa çalışır. Şərq mədəniyyətinin əsas inkişaf mərhələləri: Qədim Şərq (Misir, Mesopotamiya, Çin, Hindistan) mədəniyyəti, Qədim türk məd. Ərəb-müsəlman mədəniyyəti. Şərq mədəniyyətinin əsas xüsusiyyətləri (Böyüklərə hörmət, sadiqlik, dözümlük, daxili təmizliyə meyillik, ənənələrin qorunması və s.).

**13.** Mədəniyyətin intibah dövrü, Barokko və Klassisizm

İntibah dövrünün mərhələləri XIII-XVI əsrlər. Renesans sözünün etimologiyası. İlk intibah (XIII-XIV əsrlər). Roman və Qotika incəsənəti. Dante, Cotto, Kavallini. Heykəltəraşlıq. N.Pizano. Bədii ədəbiyyat: F.Petrarka, C.Bokaçço. Rəssamlıq-Duçço.

Erkən intibah, yüksək intibah. Təsviri incəsənət: Leonardo da Vmçi, Rafael Santi, Mikelancelo. Poeziya: Ariosto, Tasso. Elm: riyaziyyat, astronomiya. C.Bruno, Q.Qaliley, Kopernik.

Son intibah: Realistlər və nominalistlər təbii-elmi fikirlərin və azadfikirliliyin yaranmağa başlanması. Şimali Avropa intibahı: İtaliya intibahında estetik, şimal intibahında etik problemlərin ön plana çəkilməsi.

Yeni üslub-barokkonun yaranması (XVII əsr). Bu terminin mənası. Barokko bədii məntiqinin katolik kilsəsinin maraqlarını müdafiə etməsi. Barokkonun memarlığa təsiri. İtaliya heykəltəraşı və memarı Lorenso Bernini-barokko üslubunun banisi kimi. XVII əsrin II yarısında incəsənətdə "klassisizm" üslubunun təsdiqlənməsi. Bu üslubun əvvəl İspaniya, sonra Fransa, əsrin sonunda isə İngiltərəyə keçməsi.

**14.** Azərbaycan mədəniyyətinin dövrləşməsi.

1. Sivilizasiyadan qabaq b.e.ə. IX əsrə qədər. paleolit (quruçay mədəniyyəti), mezolit və neolit. Şüurlu əməkdən incəsənətə tədrici keçid. Piktoqrafik yazının yaranması.
2. B.e.ə. XI əsrdən b.e. III əsrinə qədər. Manna, Midiya, Atropatena antik dövlətləri daxilində mədəni inkişaf.
3. III-XI əsrin I yarısına qədər. Sasanilər, Ərəb xilafəti və Səlcuq imperiyası daxilində feodal mədəniyyəti. Zərdüşt Midiya və ellin quldarlıq mədəniyyətindən monoteist xristian və islam mədəniyyətinə keçid.
4. XII-XIV Azərbaycan intibahı dövrü.
5. XVIII – feodal mədəniyyətindən yeni dövr Azərbaycan mədəniyyətinə keçid.
6. XX əsrin 1918-1920-ci illərdə "ilk respublika" adlanan ADR siyasi demokratiya mədəniyyətinin təşəkkülü.
7. XX əsrin 1920-1990-cı illəri əhatə edən "ikinci respublika" adlanan totalitar sovet dövrü.

8. Demokratikləşən və modernləşən Azərbaycan mədəniyyətinin “üçüncü respublika” adlanan müasir dövrü.

**15.** Azərbaycan Demokratik Respublikası dövründə sosial mədəni vəziyyət.

Əhalinin sosial rifahının yüksəldilməsi. 1918-iyun 17-də Azərbaycan Cümhuriyyəti və Xalq Səhiyyəsi və Himayədarlıq nazirliyinin yaradılması. 1918-iyun 27 türk dilinin dövlət dili elan edilməsi. Təhsilin ana dilində aparılması ilə əlaqədar 1918 avqustun 28 qərarı. 1918 dekabr 27-də türk dilinin orduda (Səməd bəy Mehmandarov) dövlət dili kimi işlədilməsi haqqında qərar. Mətbuatın inkişafı. 1919-cu il sentyabrın 1-də Bakı Dövlət universitetinin açılması haqqında qərar. 1919-cu ilin dekabrı “İstiqlal” muzeyinin açılması. 1918-ci il 9 oktyabr Hökumət Dövlət Teatrın təşkili haqqında qərarı. Dövlət Türk opera-dram teatrının yaradılması. 1919 1 sentyabr qərarı ilə 100 azərbaycanlı gəncin Avropanın ali məktəblərinə təhsil üçün göndərilməsi.

**16.** Mədəni tərəqqi və mədəni tənəzzül.

Mədəni tərəqqi və mədəni tənəzzül. Mədəni tərəqqi - Kamildən daha kamilə doğru istiqamətlənən inkişaf prosesidir. Mədəniyyətin şaquli və üfüqi göstəriciləri. “Şaquli” göstəricinin hərəkətverici qüvvəsi- yaradıcı ziyalılar. “Üfüqi” göstərici – ziyalıların nisbətən konservativ, passiv müşahidəli istehlakçı hissəsi. Mədəni tənəzzül – təşkilat səviyyəsinin yuxarıdan aşağıya doğru deqradasiyası. Yazı sisteminin itməsi. Sivilizasiyaların çökməsi. Mədəniyyətin “aşağı həddi”.

**17.** Mədəniyyətin əsas sahəsi olan turizmin yaranması

M.Nemolyayeva və L.Xodorkova görə ingilis ədəbiyyatına istinadən, turizmin əsasının 1841-ci ildə qoyulması və ilk xarici səyahətin 1855-ci ildə Parisdə keçirilən Ümumdünya sərgisinə təşkil olunması. R.Zaçinyayev və N.Falkoviçə görə ilk mütəşəkkil turist qrupunun 1863-cü ildə İsveçrəyə səyahət etməsi, M.BirjakovagörəİngiltərədənFransaya ilk mütəşəkkil turların hələ 1815-ci ildə təşkil olunması. 1829-cu ildə dünyada ilk dəfə olaraq K.Baydeker tərəfindən hazırlanmış və nəşr olunmuş «səyahətçilərin soraq kitabçası» haqqında. İngilis keşişi Tomas Kukun müasir turizmin banisi hesab olunması.

Üçüncü bölmə. Mədəniyyətin fəlsəfəsi (kulturfilosofiya – mədəniyyət haqqında fəlsəfi biliklər)

**18.** Klassik alman kulturfəlsəfəsi: İ.Kant, F.Hegel

İ.Kantın “Saf ağlın tənqidi” və “Praktik zəkanın tənqidi” əsərləri. Əsərin əsas ideyası-aqnostisizm. İdrak zamanı baş verən çətinliklərin səbəbi obyekt deyil, idrak prosesinin subyektidir. İnsan zəkasının dərketmə imkanlarının məhdudluğu. Biliyin idrak fəaliyyətinin nəticəsi olaraq təsnifatı: Aposterior bilik, apriori bilik,

“öz-özlüyündə şeylər” – aqnostisizm. İdrak prosesinin sxemi. Mədəniyyətin qneseoloji funksiyası. İdrak zamanı zəkanın qarşılaşdığı keçilməz hüdudlar. Hissi seyrin formaları. Dərrakə formaları. Xalis əxlaq. Xalis əxlaq və real həyat. İmperativ əxlaq – Elə hərəkət elə ki, sənin hərəkətinin maksiması ümumi qanunvericiliyin prinsipi ola bilsin. Şərtsiz imperativin müasir izahı.

Ruh fəlsəfəsi. Subyektiv ruh – ayrıca insanın qəlbi, şüuru (“özü üçün ruh”). Obyektiv ruh – “ümumən cəmiyyətin ruhu”. Obyektiv ruhun ifadələri: əxlaq, vətəndaş cəmiyyəti, dövlət. Absalyut ruh - ruhun ali ifadəsi, əbədi mövcud olan həqiqət kimi. Absolyut ruhun ifadələri: İncəsənət, din, fəlsəfə. İncəsənət – insan tərəfindən mütləq ideyanın ifadəsi kimi. Mütləq ideyanı görüb onu ifadə etmək bacarığı (ilhamlanma) – dahi insanlar – incəsənətin yaradıcıları kimi. Din incəsənətin antitezisi kimi. Din – insanlara vəhy kimi Allah tərəfindən göndərilən mütləq ideyadır. Fəlsəfə - incəsənətin və dinin sintezi kimi. Fəlsəfə Hegelə görə “fikirlə zəbt olunan dünya”, ali bilik.

**19.** Aksioloji (V.Vindelband, Q.Rikkert) və simvolik fəlsəfə (E.Kassirer).

“Aksios” dəyər anlayışı kimi. Sokrat – Xeyir nədir? Sualının cavabı. Düzgün qiymətləndirmə, dəyərləndirmə. Faydalı və zərərli olanlar. Zamanla sıradan çıxmış dəyərlər. Yeni yaranmış dəyərlər. Mədəniyyətin aksioloji funksiyası. Sokrat – həqiqət etikası ən böyük mənəvi sərvətdir. Həqiqəti bilmək xeyirxahlıq deməkdir. Əxlaqi sərvətlər: xeyir, borc, ideal, şərəf, vicdan, xoşbəxtlik. Q. Rikkert – mədəniyyət dəyərlər sistemidir: həqiqət, gözəllik, ilahi müqəddəslik, mənəviyyat, xüsusi müqəddəslik. V. Vindelmand – mədəniyyət insanın dünyanı anlaması, və dərk etməsindən asılı olaraq, dəyərlər seçmək azadlığı sahəsidir. Dəyərlər dünyası məsuliyyəti hiss etmək dünyasıdır. Dəyərlər şüurdadır. Dəyərlərin gerçəklikdəki təcəssümü hər cür rifahın yaradılmasıdır. Dəyərlərin növləri. Simvolik fəlsəfə (E.Kassirer) “Simvolik formaların fəlsəfəsi” əsəri. İnsan fəaliyyəti sistemi “insanlıq” dairəsini cızır. Dil, əsatir, din, incəsənət, elm, tarixşünaslıq bu dairənin sektorlarıdır. İnsan simvolik kainatın nümayəndəsidir. Dil, əsatir, incəsənət bu kainatın hissələri kimi. Emosional dil. Poetik dil. Sivilizasiya simvolik təxəyyüllər və simvolik təfəkkürlərin məhsulu kimi.

**20.** Mədəniyyətdə psixoanaliz və neofreydizm (Z. Freyd, K.Yunq,K.Xorni, E. Fromm).

Psixikanın dinamik sxemi: O, Mən və Qeyri-mən. İnsan psixikasını şərtləndirən faktorlar. Həzzlər. Çıxarılma (sublimasiya). Libido. ErosTanatos. Mədəniyyət inkişaf etdikcə insan ehtirasları daha çox hallarda boğulur. Bu kütləvi psixozlara ümumxalq depressiyalarına gətirir. Kütlə, izdiham fenomeni. Neofreydizmin əsas cərəyanları. K.Yunq. Arxetiplər – universal təsəvvürlər. İnsanın məqsədi arxiteplərinşifrələrini açmaq.

**21.** Mədəniyyətdə ekzistensialist fəlsəfə

Ekzistensializmin predmeti. XIX əsrin ikinci yarısında Qərbi Avropada geniş yayılmış fəlsəfi cərəyan. Ekzistensializmin araşdırdığı problemlər: İnsan şəxsiyyətinin unikallığı. İnsanın özgələşmə problemi. İnsanın tənhalığı, baxımsızlığı problemi. Həyatın mənasızlığı problemi. Daxili seçim problemi. İnsanın daxili aləmi  və ətraf həyatı arasında heyrət doğuracaq dərəcədə ziddiyyətlər.  S. Kyerkeqor əsl mövcudolma, qeyri-əsil mövcud olma. Əsl mövcud olmanın mərhələləri. Karl Yaspers "Sərhəd situasiya". J.P.Sartr. A.Kamyu. Nihilizm.

**22.** Özünüdərk mədəniyyəti

Özünüidarə mədəniyyəti. İnsan dəyərinin mədəni ölçüsü. Özünüidarəetmənin effektivlik formulu. Özünüidarənin baza prinspləri, qaydaları və məntiqi. Öz "mən"ini idarəetmə Öz fikirlərinin və hisslərinin idarəedilməsi. Şəxsi təyinat və həyatın mənası. İki dəyişən amil: şərait və seçim. Arzular, maraqlar, məqsədlər və özünüidarə mənbələri. Fəaliyyətin nəticələri – müvəffəqiyyət meyarı kimi. Çətinliklər, uğursuzluqlar və məğlubiyyətlərin aradan qaldırılması. Özünü təkmilləşdirmə. Ünsiyyət mədəniyyəti. Münaqişələrin idarə edilməsi. Xoşbəxtlik – həyat stimulu kimi. Məhəbbət – enerji mənbəyi kimi. Rifah- özünüidarə nəticələrindən biri kimi. Sağlamlıq – özünüidarə şərti və göstəricisi kimi.

23. Mədəniyyətdə strukturalist və poststrukturalist fəlsəfə.

Strukturalizmin əsas nümayəndələri: J.Derrida, J.lakan, Bart, M.Fuko. Kulturoloji araşdırmalar üçün dilçilik elminin götürülməsi. F. De Sössür tərəfindən dilçilikdə işlənib hazırlanmış olan struktur metodunun insanın mənəvi həyatının digər sahələrinin öyrənilməsinə tətbiq edilməsi. Formalar: ümumbəşəri universalilər; intellektin fəaliyyətinin ümumi sxem və qanunları. "Əsas strukturlar" - İnsanın bütün mənəvi yaradıcı fəaliyyətini tənzimləyən şüuraltı mexanizmlərdir. Poststrukturalizm strukturun (tərkib hissələrə ayrılaraq) bölünməsi. Reprezentativ modelin simulyativ modellə əvəzlənməsi. Postmodernizmin əsas əlamətlərinin təsnifatı. Posmodernizm modernizmin davamı kimi. Postmodernizmin əsas nümayəndələri J.F.Lyotard, Fukuyama, Habermas. Derrida. Baudrillard. Postmodernizmin əsas xüsusiyyətləri. Etik dəyərlərin nisbi və dəyişkən, dini-mənəvi dəyərlərin və həqiqətin absurd qəbul edilməsi. İdarəetmədə totalitar sistemlər yerinə çoxuclu və açıq demokratik dəyərlərə söykənən idarə sisteminin qəbul edilməsi.  Mədəniyyətin  müxtəlif növlərində postmodernizmin təzahürü; Postmodernizm və kütləvi mədəniyyətt. Sovet ideologiyasının çöküşü ilə postmodernizmə marağın artması.

24.İndustrial və postindustrial cəmiyyətin sosial-mədəni konsepsiyaları.

